# Türkiyə Maarif Vəqfinin Azərbaycanda ilk beynəlxalq məktəbi açıldı



***Oktyabrın 3-də Bakıda ilk Azərbaycan Beynəlxalq Maarif Məktəbinin (ABMM) açılış mərasimi keçirildi. Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Elm və Təhsil naziri Emin Əmrullayev, İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, Milli Məclisin deputatları və digər rəsmi şəxslərin iştirak etdiyi mərasimdə ölkəmizdə bu tipli müasir təhsil ocağının ilk dəfə fəaliyyətə başlamasının önəmi vurğulandı.***

Türkiyə Maarif Vəqfi barədə verilən məlumatda bildirildi ki, ölkənin beynəlxalq təhsilə açılmış pəncərəsi olan Maarif Vəqfinin dünyanın 67 ölkəsində 429 beynəlxalq maarif məktəbi fəaliyyət göstərir və orada 50 minə yaxın şagird təhsil alır. Yeni tədris ilindən etibarən Azərbaycanda ilk dəfə olaraq Beynəlxalq Maarif məktəbi təhsil fəaliyyətinə başlayıb.

Açılış mərasimində Elm və Təhsil naziri Emin Əmrullayev bildirdi ki, istənilən təhsil ocağının əsas hissəsi orada yaradılan şərait və infrastrukturdan ibarətdir: "Bu məktəbdə həmin nüanslar yüksək səviyyədə nəzərə alınıb. Burada müasir çağırışlara cavab verəcək gənclər yetişdiriləcək". İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev isə bu təhsil ocağının hər iki ölkənin daha da yaxınlaşması üçün gözəl örnək olduğunu vurğuladı.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı çıxışında Beynəlxalq Maarif məktəblərinin əsas istiqamətlərindən birinin şagirdlərin vətənpərvər, millətinə, bayrağına, dilinə sevgi və hörmət ruhunda, intellektual bir şəxsiyyət kimi formalaşmasından ibarət olduğunu deyib. O, bu məktəbin Azərbaycan və Türkiyə qardaşlığının yüksək səviyyəsini göstərmək üçün gözəl nümunə olduğunu diqqətə çatdırdı.

Təhsil müəssisəsi 2 mühafizə, 1 inzibati və 4 tədris binasından ibarətdir. Məktəb ağıllı lövhələrlə quraşdırılmış sinif otaqları, laboratoriyalar, emalatxanalar, idman zalı, konfrans zalı və yeməkxana ilə təmin olunub.

Beynəlxalq maarif təhsil standartına əsasən, məktəbəqədər, ibtidai, orta və tam orta təhsil imkanları təklif edən təhsil müəssisəsində, əsas fənlər ilə yanaşı, dərsdənkənar məşğələlər də keçiriləcək. Ana dilində tədris imkanları təklif edən təhsil müəssisəsində türk, ingilis, rus və ispan dillərinin də akademik səviyyədə öyrədilməsi hədəflənir.

***R.TAHİR, "Xalq qəzeti"***

